**UOT 76**
**https://doi.org/10.59849/2218-4783.2025.2.265**

**ŞƏMSİYYƏ ZALOVA**

# MİKAYIL ABDULLAYEV TABLOLARINDA TƏQDİRƏLAYİQ MİLLİ XARAKTER – GÖRKƏMLİ BƏSTƏKAR ÜZEYİR HACIBƏYLİ

*Azərbaycan musiqi sənətinin inkişafına əvəzsiz töhfələr verən, görkəmli bəstəkar Üzeyir Hacıbəyli və onun zəngin bədii irsi rəssam, heykəltəraş və s. kimi yaradıcı ziyalılarımızı ilhamlandıran ən başlıca mövzulardan olmuşdur. Belə ki, Mikayıl Abdullayev, Tahir Salahov, Nəcəfqulu İsmayılov, Tokay Məmmədov, Ömər Eldarov kimi bir çox rəssam və heykəltəraş dahi bəstəkara ithafən, janr və növ müxtəlifliyi ilə seçilən sənət əsərləri ortaya çıxarmaqla sonsuz məharət göstərmişlər. Adları sadalanan rəssamların arasında xüsusilə Mikayıl Abdullayevin portret yaradıcılığı Ü.Hacıbəyli mövzusunda olduqca müvəffəqiyyətli olmuşdur. Rəssam dahi bəstəkara bir-neçə portret həsr etmiş, Üzeyir bəy dühasının böyüklüyü haqqında ən dəqiq konturları da məhz o verə bilmişdir. Onun Üzeyir bəy obrazını rəsm etdiyi "Xeyir-dua", "Üzeyir Hacıbəyli və Səməd Vurğun" kimi süjetli tabloları isə rəssamlıq sənətimizin bu sahəsində yaradılan ən qiymətli əsərlərdəndir.*

*Qeyd etmək lazımdır ki, Azərbaycan teatr rəssamlığı sənətinin inkişafında, onun təsir dairəsinin genişlənməsində müstəsna xidmətləri olan sənətkar, Üzeyir bəy obrazını şöhrətləndirən portretlər yaratmaqla kifayətlənməmiş, eyni zamanda dahi bəstəkarın əsərlərinə səhnə tərtibatı vermiş və geyim eskizləri hazırlamışdır. Rəssam görkəmli bəstəkarın "Leyli və Məcnun" və "Koroğlu" operalarına istinadən qiymətli işlər ortaya çıxarmışdır.*

**Açar sözlər:** *Azərbaycan, təsviri sənət, rəssam, Mikayıl Abdullayev, portret, bəstəkar, Üzeyir Hacıbəyli.*

**Giriş.** Təsviri sənət tariximizə nəzər saldığımız zaman görə bilərik ki, rəssam, heykəltəraş və s. kimi yaradıcı ziyalılarımız Üzeyir Hacıbəyli kimi təqdirəlayiq milli xarakterlərin təsvirlərini yaratmağı hər zaman özləri üçün başlıca meyar seçmişlər. Belə ki, Mikayıl Abdullayev, Tahir Salahov, Nəcəfqulu İsmayılov, Tokay Məmmədov, Ömər Eldarov kimi bir çox rəssam və heykəltəraş dahi bəstəkara ithafən, janr və növ müxtəlifliyi ilə seçilən sənət əsərləri ortaya çıxarmaqla sonsuz məharət göstərmişlər. Beləliklə, bəstəkarın bizə tanış olan xarakterik cizgilərini qüsursuz şəkildə rəsm etməyi bacaran sənətkarlar, onun bədii-psixoloji tutuma malik, bir-birindən dəyərli təsvirlərini milli mədəniyyət xəzinəmizə ərməğan etmişlər.


**Səkil 1.**


**Şəkil 2.**


**Şəkil 3.**

Adları sadalanan rəssamların arasında xüsusilə Mikayıl Abdullayevin portret yaradıcılığı Ü.Hacıbəyli mövzusunda olduqca məhsuldar olmuşdur. O, dahi bəstəkara bir-neçə portret həsr etmiş, Üzeyir bəy dühasının böyüklüyü haqqında ən dəqiq konturları da məhz o verə bilmişdir.

M.Abdullayevin qəhrəmanları çox olub. Xatirələrində də bu barədə söz açır, amma onun yaddaşında dərin iz salan, "Unudulmaz obraz" adlandırdığı qəhrəmanı böyük bəstəkar Üzeyir Hacıbəyli olmuşdur.

**Rəssamın Ü.Hacıbəyli obrazını şöhrətləndirən portretləri.** 1943-cü ildə yaradılmış, sadəliyi, səmimiliyi, mənəvi zənginliyi ilə tamaşaçının qəlbinə yol tapan bəstəkarımız Ü.Hacıbəylinin portreti rəssam M.Abdullayevin nailiyyəti idi.

Gələcəkdə Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi kimi tanınacaq olan 22 yaşlı gənc rəssam portretin yaranma tarixçəsi ilə bağlı öz xatirələrində qeyd edir: "Yadımdadır, 1943-cü ildə C.Cabbarlı adına Azərbaycan Teatr Muzeyinin açılışına hazırlıq görülürdü. Muzeyin ekspozisiyasında böyük bəstəkarımız Üzeyir Hacıbəylinin portreti olmalı idi. Bu şərəfli iş bu sətirlərin müəllifinə tapşırıldı.

Mən portreti naturadan çəkmək niyyətində idim. Lakin məlum oldu ki, Üzeyir bəy bu barədə heç eşitmək belə istəmir. Sən demə, rəssamlardan kimsə onun Moskvada bir xeyli vaxtını alıb, amma nəticəsi olmayıb.

Nəhayət, Üzeyir bəyin bu işə razılıq verməsi xəbəri mənə çatanda sevinc qarışıq həyəcan keçirməyə başladım.

Konservatoriyanın direktoru Üzeyir bəyin kabinetində, pəncərə qabağında iş yerimi rahatlayaraq molbertin ayaqlarını açıb qurdum və rəngləri sahmanladım. Lövhə üçün hazırladığım çərçivəli kətanı üçayaqlı molbertə bənd etdim. Divardan asılan qədim saat zəngi on dəfə çaldı.

Üzeyir bəy kabinetə daxil olanda mən cəld ayağa qalxdım və biz ehtiramla salamlaşdıq. Sonra o, kresloya əyləşdi və əllərini kreslonun qolları üstünə qoyub soruşdu: "necə oturmalıyam?" Mən tez cavab verdim: "elə bu cür, oturduğunuz kimi sərbəst" [5, s. 14].



**Şəkil 4.**

Kompozisiyanın mərkəzində görkəmli bəstəkarın məğrur surəti yüksəlir. Məşğuliyyətindən bir anlığa ayrılan bəstəkarın müdrik siması, insan qəlbinə nüfuz edən nəzərləri canlıdır, təsirlidir. Onun kəskin üz cizgilərində, oturuşunda, libasında dinamika və həyəcan duyulur. Gərgin zehni əməyin nəticəsində yaranmış bu portretdə şəxsiyyətə hörmət, böyük məhəbbət açıq-aydın hiss olunur. Rəssam bu əsərində canlı naturanın real xassələrini təcəssüm etdirməklə və boyaların ahəngi vasitəsi ilə bədii formanın orijinallığına nail ola bilmişdir (şəkil 1).

M.Abdullayev həcm etibarilə çox da böyük olmayan bu tablonu üç-dörd günə bitirmiş və muzeyin tələsməsinə baxmayaraq, portreti çox bəyənən bəstəkara bağışlamışdı. Rəssamın qeydlərində oxuyuruq: "Səhər gəlib kabineti açdırdım ki, portreti və molberti aparım. Komendant qapını aça-aça mənə dedi: "Portreti dünən axşam biz apardıq Üzeyir bəyin evinə. Məleykə xanım portretə baxmaq istəyir ama xəstə olduğuna görə bura gələ bilmir". Amma beş gün portretdən xəbər çıxmadı. Doğrusu, Üzeyir bəyin evinə özüm zəng vurmağa utanırdım, odur ki, gəlib Ramazanı (Ü.Hacıbəyovun şəxsi katibi Ramazan Xəlilov) tapdım. O dedi: "Açığını deyim, bilirsən nə var? Portret onların o qədər xoşuna gəlib ki, vermək istəmirlər. Hətta məni müvəkkil ediblər sənə deyim və öyrənim, o portretin qiyməti nə qədərdirsə, Üzeyir bəy dəyər-qiymətini sənə vermək istəyir". Düzü, mən bərk pərt oldum və bunu Ramazan da hiss etdi. Dedim: "Ramazan, nə danışırsan? Dünyasında heç mən belə şeyə razı olmaram. Üzeyir bəy Moskvada oxuyan bizim yaradıcı gəncliyə daim atalıq etmişdir. Elə mən də onların içərisində. Bunu məndən də yaxşı bilirsən. İndi mən durub ondan portret haqqı alım? Əksinə, bu mənim üçün şərəfdir!" [5, s. 15].

M.Abdullayev tezliklə muzey üçün ikinci, daha böyük portret üzərində işləməyə başlamışdı. Üzeyir bəy rəssama növbəti dəfə də böyük məmnuniyyətlə poza vermişdi.

İkinci portretdə dahi bəstəkar bu dəfə kabinetindəki iş masasının arxasında, əllərinin barmaqlarını bir-birinə keçirib əyləşmişdir. Sənətkar bəlkə də, yeni bəstələdiyi əsərindən indicə ayrılmışdır. Tünd koloritli bu portretdə bəstəkarın üzü və əlləri işıqlandırılmış, onun təmkinli siması, düşüncəli nəzərləri canlandırılmışdır. Onun zəkalı üzü, mənalı baxışları tamaşaçını özünə cəlb edir. Bu cəhətlərə istinad edən rəssam dahi bəstəkarın portretini romantik səpkidə yaratmış, onun şəxsiyyətinə xas əzəməti, musiqiylə yoğrulmuş ruhunu ifadə etməyə müvəffəq olmuşdur (şəkil 2). "Artıq ikinci portreti də qurtardım, şəxsən məni ikinci portret birincidən artıq qane edirdi" [5, s. 15].

Qeyd edək ki, Teatr Muzeyinin açılışı bir qədər də gecikdiyi üçün rəssamın ikinci portreti İncəsənət Muzeyinə verilmişdi. Lakin haqqında danışdığımız portret hazırda bəstəkarın ev muzeyində mühafizə olunur.

M.Abdullayev 1944-cü ildə, Teatr Muzeyi üçün növbəti, üçüncü portreti işləməyə başlamışdı. Bu portretdə isə Üzeyir bəy özünün ən çox xoşuna gələn fotoşəkillərindən birini rəssama bağışlamışdı. Rəssam bu fotoşəkilin vasitəsi ilə portreti uğurla tamamlamışdı [5, s. 18]. Haqqında bəhs olunan portret hazırda Azərbaycan Teatr Muzeyində saxlanılır (şəkil 3).

Bildirək ki, bəstəkara bağışlanılan birinci portret onun vəfatından sonra bir müddət Moskvadakı M.İ.Qlinka adına Musiqi Mədəniyyəti Muzeyində nümayiş etdirilmişdir. Əsər M.Abdullayevin muzeyə yeni bir portret təqdim etməsindən sonra yenidən Bakıya-ev muzeyinə qaytarılmışdır. Buradan belə nəticəyə gəlinir ki, sənətkar rəsm etdiyi macəralı üç portretdən əlavə bir və ya bir-neçə portret üzərində də işləmişdir. Bu barədə rəssamın öz qeydlərində də oxuyuruq: "Böyük bəstəkarımızın iri həcmli obrazını yaratmaq niyyətindəyəm. Bu lövhəni hələ 1943-cü ildə çəkdiyim akvarel eskizə əsasən işləyəcəyəm. Həmin eskizi bəstəkarın özü ilə birlikdə müzakirə etmişdim və hətta onun bu işdə bəzi arzu və qeydlərini indiyədək unutmamışam [5, s. 18].

**Rəssamın Ü.Hacıbəyliyə həsr etdiyi süjetli tabloları.** Bu gün bəstəkarın ev muzeyinin ekspozisiyasını bəzəyən tablolar içərisində rəssamın Üzeyir bəyə həsr etdiyi "Xeyir-dua"(1990) adlı süjetli tablosu istər mövzu, istərsə də bədii-estetik cəhətdən olduqca yaddaqalandır. Çoxfiqurlu kompozisiyaya malik bu tabloda xan qızı Natəvanın balaca Üzeyiri Qori Müəllimlər Seminariyasına ilk dəfə imtahan verməyə yola salması əks olunmuşdur. Yeri gəlmişkən qeyd edək ki, bu tarixi görüş haqqında Natəvanın arxivində saxlanılan sənəd də xəbər verir. Bu sənədi bəstəkarın qardaşı Zülfüqar Hacıbəyli yazmış, Üzeyir Hacıbəyli isə təsdiq etmişdir. Sənəddə yazılır: "Keçmişdə verdiyim qeydə əlavə olaraq təsdiq edirəm ki, 1896-cı ildə qardaşım Ü.Hacıbəyli ilə bərabər Qori şəhərinin müəllimlər məktəbinə imtahan vermək üçün Tbilisi şəhərinə yola düşərkən əmim Hacıbəy Hacıbəylinin vasitəsi və müşayiəti ilə o vaxt xan qızı Xurşudbanı bəyimin (Natəvanın) yanına gəldik ki, bizə xeyir-dua versin" [6, s. 13].

Qeyd edək ki, bəstəkar seminariyaya həmin il yox, şairənin ölümündən sonra 1899-cu ildə daxil olmuşdur. Vurğulayaq ki, o zamanlar maarifin, elmin himayədarı olan şairə uzaq yerlərə təhsil almaq üçün gedənlərə xeyir-dua verərmiş. Beləliklə, bu faktı və tarixi görüşü nəzərə alan M.Abdullayev Şuşa fonlu bu tablonu fırçaya almışdır.



**Şəkil 5.**

Rənglərin təzadından və təsiretmə gücündən ustalıqla istifadə edən rəssam personajların hər birinin kompozisiyanın bütövlüyünə xidmət etməsinə müvəffəq olmuşdur. Rəssamın zəngin təxəyyülünün məhsulu olan, parlaq, olduqca nəfis, rəng baxımından peşəkarcasına rəsm edilən bu kompozisiyada görüntüyə gətirilən fiqurları hərəkətdə əks etdirən rəssam talblonun ritmik oynaqlığına nail olmuşdur (şəkil 4).

Göründüyü kimi, rəssam Ü.Hacıbəyli obrazına müxtəlif vaxtlarda, bir-neçə dəfə müraciət etmiş, beləliklə, zaman keçdikcə Üzeyir bəy obrazı rəssamın fırçasında yeni çalarlar, daha orijinal xarakterik təsvir qazanmışdır. Budur, sənətkarın yüksək peşəkarlıqla yaratmış olduğu əsərlərindən biri. Rəssam 1995-ci ildə Üzeyir bəy mövzusuna yenidən qayıtmış, "Üzeyir Hacıbəyli və Səməd Vurğun" adlı tarixi tablonu fırçaya almışdır. Cəlbedici rəng və poza zənginliyini şərtləndirən bu tablo həm də tarixilik baxımından yadda qalır. Belə ki, tabloda iki əqidə dostunun Azərbaycan SSR Dövlət Himnini  yazdıqları an təsvir edilmişdir.

Fiqurların duruşundakı pafos və ustalıqla işlənmiş gerçəkçi xarakter tablonun mükəmməlliyini təmin edən başlıca keyfiyyətlərdəndir. Mahir portret ustası olan rəssam bu əsərində də qəhrəmanlarının daxili aləminə nüfuz etmiş, onların psixologiyasını, mənəvi keyfiyyətlərini məharətlə rəsm edə bilmişdir. Bütün bu detalların birgə vəhdəti əsəri, müəllifin son dövr yaradıcılığının ən böyük uğurlarından biri kimi qiymətləndirməyə əsas verir (şəkil 5).

Vurğuladığımız kimi M.Abdullayevin portretləri arasında Üzeyir bəyin obrazını əbədiləşdirən lövhələri xüsusilə müvəffəqiyyətlidir. Rəssam bu işlərində də hər şeydən əvvəl öz qəhrəmanının daxili səmimiliyini duyan və düzgün formada, təravətli rənglərlə canlandırmağı özü üçün başlıca məqsəd seçən bir sənətkar kimi çıxış etmişdir. Portretlərin heç birində təkrarçılığa yol verməmiş, kompozisiyalarını olduqca orijinal qurmuş, sənətin yeni zirvələrini fəth etmişdir.

**Rəssamın yaradıcılığında Ü.Hacıbəylinin bədii irsi.** Azərbaycan teatr rəssamlığı sənətinin inkişafında, onun təsir dairəsinin genişlənməsində müstəsna xidmətləri olan M.Abdullayev Üzeyir bəy obrazını şöhrətləndirən portretlər yaratmaqla kifayətlənməmiş, eyni zamanda dahi bəstəkarın əsərlərinə səhnə tərtibatı vermiş və geyim eskizləri hazırlamışdır. Rəssam Ü.Hacıbəylinin "Leyli və Məcnun" (1965-ci ildə) və "Koroğlu" (1968-ci ildə) operalarına ithafən qiymətli işlər ortaya çıxar-

mışdır. Bu barədə rəssamın qeydlərində oxuyuruq: "Böyük ustadın o zəngin irsinə mən də iki dəfə müraciət etmişəm" [5, s. 19].



**Şəkil 6.** "Koroğlu" operası üçün çəkilmiş eskiz.

Gördüyümüz kimi, rəssam Ü.Hacıbəylinin bədii irsinə ardıcıl olaraq müraciət etmiş, bir-birindən maraqlı tərtibat işləri ilə rəssamlıq sənətimizin bu sahəsinin inkişafına da təkan vermişdir.

**Nəticə.** Beləliklə, insan surətində psixoloji əhval-ruhiyyəni açıb göstərmək, naturanı hər tərəfli dərk edib, onun formasını, həcmini, rənglərin təbii münasibətini, bədii-emosional təsir gücünü üzə çıxarmaq sahəsində axtarışlar edən M.Abdullayev bəstəkarın portretlər silsiləsini yaratmaq kimi şərəfli bir vəzifəni qarşısına məqsəd qoymuş və buna nail olmuşdur. Bu əsərlərin üstünlüyü onların yalnız bədii cəhətdən maraqlı, orijinal həllində deyil, həmçinin dahi bəstəkarın yüksək mənəvi dəyərlərə malik olmasından irəli gəlirdi. Rəssamın bu tabloları sonrakı dövr rəssamları üçün portret yaradıcılığı məktəbi əhəmiyyəti kəsb edir desək, yanılmarıq.

## ƏDƏBİYYAT

1. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı: Şərq-Qərb, 2007, 157 s.
2. Həbibov N. Azərbaycan Sovet rəssamlığı. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1966, 186 s.
3. Kərimov K., Əfəndiyev R., Rzayev N., Həbibov N. Azərbaycan incəsənəti. Bakı: İşıq, 1992, 338 s.
4. Mikayıl Abdullayev. Bakı: Şərq-Qərb, Sərvət, 2013, 104 s.
5. Mikayıl Abdullayev. Yazılarım. Bakı: İşıq, 1988, 148 s.
6. Səfərova Z. Ölməzlik. Bakı, 2010, 603 s.
7. Üzeyir Hacıbəyov ensiklopediyası. Bakı: Şərq-Qərb, 2007, 264 s.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: wems.zal@mail.ru***

**SHAMSIYA ZALOVA**

## AN ADMIRABLE NATIONAL IMAGE – THE OUTSTANDING COMPOSER UZEYIR HAJIBEYLI IN THE PAINTINGS OF MIKAYIL ABDULLAYEV

The outstanding composer Uzeyir Hajibeyli, who made an invaluable contribution to the development of Azerbaijani musical art, and his rich artistic heritage became one of the main themes

that inspired our creative intelligentsia – artists, sculptors, and others. Thus, many artists and sculptors, such as Mikayil Abdullayev, Tahir Salahov, Najafgulu Ismailov, Tokay Mammadov, Omar Eldarov, demonstrated boundless skill, creating works of art, distinguished by various genres and types, dedicated to the great composer. Among the listed artists, Mikayil Abdullayev's portrait works on the theme of U. Hajibeyli enjoyed particular success. The artist dedicated several portraits to the great composer, and it was he who managed to most accurately convey the greatness of Uzeyir Bey's genius. His paintings depicting Uzeyir Bey, such as "Kheir Dua" and "Uzeyir Hajibeyli and Samad Vurgun", are among the most valuable works created in this area of our art. It is important to acknowledge that the artist, who made a remarkable contribution to the advancement of Azerbaijani theater art and the broadening of its sphere of influence, did not confine himself to the creation of portraits that glorified the image of Uzeyir Bey. He also designed scenography for the works of the great composer and drew sketches of costumes. The artist created valuable works based on the operas of the famous composer "Leyli and Majnun" and "Koroghlu".

**Keywords:** *Azerbaijan, fine arts, artist, Mikayil Abdullayev, portrait, composer, Uzeyir Hajibeyli.*

**Шамсия Залова**

## ДОСТОЙНЫЙ ВОСХИЩЕНИЯ НАЦИОНАЛЬНЫЙ ОБРАЗ – ВЫДАЮЩИЙСЯ КОМПОЗИТОР УЗЕИР ГАДЖИБЕЙЛИ В КАРТИНАХ МИКАИЛА АБДУЛЛАЕВА

Выдающийся композитор Узеир Гаджибейли, внесший неоценимый вклад в развитие азербайджанского музыкального искусства, и его богатое художественное наследие стали одной из главных тем, вдохновлявших нашу творческую интеллигенцию – художников, скульпторов и других. Так, многие художники и скульпторы, такие как Микаил Абдуллаев, Тахир Салахов, Наджафгулу Исмаилов, Токай Мамедов, Омар Эльдаров, проявили безграничное мастерство, создав произведения искусства, отличающиеся разнообразием жанров и видов, посвященные великому композитору. Среди перечисленных художников особым успехом пользовались портретные работы Микаила Абдуллаева на тему У.Гаджибейли. Художник посвятил великому композитору несколько портретов, и именно ему удалось наиболее точно передать величие гения Узеир бея. Его картины, изображающие Узеир бея, такие как «Хеир-дуа» и «Узеир Гаджибейли и Самед Вургун», относятся к числу ценнейших произведений, созданных в этой области нашего искусства.

Следует отметить, что художник, внесший исключительный вклад в развитие азербайджанского театрального искусства и расширение сферы его влияния, не ограничивался созданием портретов, воспевающих образ Узеир бея, но также создавал сценографию к произведениям великого композитора и делал эскизы костюмов. Художник создал ценные произведения по мотивам опер прославленного композитора «Лейли и Меджнун» и «Кёроглу».

**Ключевые слова:** *Азербайджан, изобразительное искусство, художник, Микаил Абдуллаев, портрет, композитор, Узеир Гаджибейли.*

*(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 17.06.2025**
**Son variant 22.07.2025**